


*İkinci Qarabağ müharibəsi tarixdə Azərbaycanın şanlı qələbəsi kimi qalacaq. Bu qələbənin qazanılmasında bütün xalqımız birlik, həmrəylik göstərmişdir. Atılan addımlar bütün bir məqsədi güdürdü ki, qısa müddət ərzində az itkilərlə düşmənə elə sarsıdıcı zərbə vuraq ki, düşmən məcbur olub torpaqlarımızdan çıxsın. Döyüş meydanında qazanılmış qələbələr siyasi müstəvidə də qələbənin qazanılmasını şərtləndirdi.*

***İlham ƏLİYEV***
***Azərbaycan Respublikasının Prezidenti***

# Milli birliyin təntənəsi

***Qarabağ və Şərqi Zəngəzur işğal dövründə beynəlxalq aləm tərəfindən Azərbaycanın ayrılmaz hissəsi kimi tanınsa da, BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsində erməni silahlı qüvvələrinin həmin ərazilərdən dərhal, tam və qeyd-şərtsiz çıxarılması vurğulansa da, Ermənistan 30 il qəsbkar əməllərindən əl çəkmədi. Düşmən ölkənin silahlı qüvvələri keçən il sentyabrın 27-də Azərbaycana qarşı təxribat törədərək, hərbi obyektləri və mülki əhalini hədəfə alandan sonra ordumuz beynəlxalq hüquqa əsaslanaraq, ərazi bütövlüyümüz uğrunda əks-hücumla tarixi torpaqlarımızı düşməndən xilas etdi.***

Prezident İlham Əliyev müharibə başlayan gün xalqa müraciətində bu barədə dedi: “Biz öz torpağımızda vuruşuruq. Bu gün Azərbaycan Ordusu Azərbaycan torpaqlarında düşmənə sarsıdıcı zərbələr endirir. Bu gün Azərbaycan Ordusu öz torpağında Azərbaycanın ərazi bütövlüyünü qoruyur, müdafiə edir. Erməni əsgərinin bizim torpağımızda nə işi var?! Ermənistan ordusunun bizim torpağımızda nə işi var?! Heç kəs üçün sirr deyil ki, “Dağlıq Qarabağ ordusu”nun tərkibində olan şəxsi heyətin 90 faizi Ermənistan vətəndaşlarından ibarətdir. Ermənistan işğalçı dövlətdir, bu işğala son qoyulmalıdır və son qoyulacaqdır”.

**(ardı 4-cü səhifədə)**

(əvvəli 1-ci səhifədə)

# Milli birliyin təntənəsi

Beləliklə, Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə silahlı qüvvələrimiz İkinci Qarabağ müharibəsini zəfərlə başa çatdıraraq, status-kvonu dəyişdirdi, ermənilərin "Böyük Ermənistan" və "Dağlıq Qarabağ respublikası" xülyalarına birdəfəlik son qoydu.

Böyük siyasi, diplomatik səy hesabına əldə edilən Qarabağ zəfəri isə Azərbaycanın tarixi uğuru, işğalçı Ermənistanın və dünya erməniliyinin ağır məğlubiyyətinin ifadəsi kimi tarixə yazıldı.

Yeri gəlmişkən, Vətən müharibəsi günlərində Azərbaycana güclü təhdidlər oldu. Ancaq bu təzyiqlər ölkəmizi haqq yolundan döndərə bilmədi. Dövlətimizin başçısının qeyd etdiyi kimi: "Heç kim bizim qabağımızda dura bilməz, bizə şərt qoya bilməz. Bizə müharibənin ilk günlərində şərt qoymaq istəyən, hədələmək istəyən, şərləmək istəyən ölkələrin, bəzi Qərb ölkələrinin nümayəndələri sərt cavabımızı aldılar. Gördülər, biz o ölkələrdən deyilik ki, kiminsə qabağında baş əyək və mən də o liderlərdən deyiləm ki, kimdənsə nə isə qəbul edim, hansısa sözü. Artıqlaması ilə cavab vermişəm və verəcəyəm lazım gəldikdə".

Prezident, Ali Baş Komandan İlham Əliyevin bu cür qətiyyəti, milli birliyimiz və ordumuzun qəhrəmanlığı sayəsində İkinci Qarabağ müharibəsi qələbə ilə başa çatdı, işğalçı Ermənistan təslim aktına imza atdı. Döyüş meydanında, diplomatiya sahəsində qazanılan parlaq qələbə Azərbaycanın güc-qüdrətini və xalqımızın nəyə qadir olduğunu bir daha bütün dünyaya göstərdi.

Onu da deyək ki, Vətən müharibəsi dövlətimizin başçısının müdrik və uzaqgörən siyasətçi olmaqla yanaşı, həm də mahir sərkərdəlik bacarığını, çətin, ağır şəraitdə düzgün qərar vermək istedadını bir daha bütün dünyaya nümayiş etdirdi. Dövlətimizin başçısı savaşdan sonra çıxışlarının birində deyib: "Biz döyüş meydanında, siyasi müstəvidə, istənilən formatda gücümüzü, müstəqilliyimizi göstərdik. Bu müharibədə biz nə qədər böyük sınaqlardan çıxdıq, nə qədər böyük təzyiqlərə məruz qaldıq. Amma haqq yolundan dönmədik, daim irəliyə getdik, qələbəyə doğru inamla addımladıq. Çünki mən xalqın dəstəyini hiss edirdim, xalqın inamını görürdüm. Məni heç nə dayandıra bilməzdi. Çünki bilirdim ki, biz haqlıyıq. Biz öz ərazi bütövlüyümüzü bərpa edirik, öz torpaqlarımızı qaytarırıq".

Prezident İlham Əliyev müharibənin davam etdiyi günlərdə xarici ölkələrin nüfuzlu kütləvi informasiya vasitələrinə, telekanallarına verdiyi müsahibələri ilə respublikamızın haqq səsini dünya ictimaiyyətinə tutarlı arqumentlərlə çatdırdı, həmçinin Azərbaycanın beynəlxalq hüququn tələblərinə uyğun öz torpaqlarında savaş apardığını sübut etməklə ermənipərəst xarici dairələrin döyüşlərin gedişinə müdaxilələrinin qarşısını böyük məharətlə aldı.

Hərbi əməliyyatların aparılmasında Ali Baş Komandan İlham Əliyevin müntəzəm olaraq çatdırdığı qələbə xəbərləri, işğaldan azad olunan yaşayış məntəqələri, düşmənin məhv edilən canlı qüvvəsi və hərbi texnikası barədə məlumatları da ölkəmizin hər bir vətəndaşında qürur, fərəh hissi doğururdu, xalqın dövlətimizin başçısına, rəşadətli ordumuza inamını daha da gücləndirirdi.

Vətən müharibəsində əldə edilən parlaq qələbəmizin əsasında Azərbaycan Prezidentinin qətiyyəti, müdrik diplomatik siyasəti, silahlı qüvvələrimizin güc-qüdrəti nə qədər mühüm əhəmiyyətə malik idisə, xalq–Prezident–ordu vəhdəti, birliyi də bir o qədər önəm daşıyırdı.




Ümumiyyətlə, döyüşlərdə qəhrəmanlıq göstərən əsgər və zabitlərimizin, arxa cəbhədə çalışan mülki şəxslərin, bütövlükdə xalqımızın əzm və iradəsi, bir yumruq kimi birlik və həmrəylik nümayişi ilə düşmənə sarsıdıcı zərbələr endirildi. Bu, Azərbaycana qarşı başlanan hücum əməliyyatlarının ilk günlərindən minlərlə gəncin orduya könüllü yazılmasında, dinc insanların təxribatlar zamanı evlərini tərk etməmələrində özünü göstərdi. Bu, döyüşlər getdiyi dövrdə Azərbaycan Prezidenti hər gün özünün rəsmi "Twitter" səhifəsində, xarici televiziya kanallarına müsahibələrində hadisələrin gedişatı ilə bağlı xalqa məlumat verməsində, ordumuzun nailiyyətlərini vətəndaşlarımızın diqqətinə çatdırmasında özünü büruzə verdi. Bu, eyni zamanda, Azərbaycanı bütün dünyaya güclü orduya malik bir dövlət, xalq-Prezident vəhdəti yaşanan bir respublika kimi tanıtdı.

Tarixi ədalət və haqq uğrunda aparılan müharibədə müxalifət qüvvələri tərəfindən Prezident İlham Əliyevin yürütdüyü siyasət dəstəkləndi. Azərbaycanın haqq və ədalətli mövqeyi şəxsi ambisiyalardan üstün tutuldu. Savaş günlərində cəmiyyətin həmrəylik, milli birlik, vahid amal uğrunda daha da sıx birləşməsi bəzi mənfur xarici dairələrin öz çirkin planlarını Azərbaycanda həyata keçirmələrinə imkan vermədi. Ümumiyyətlə, Ermənistanın işğalçı siyasətinə etiraz və xalqın haqq tələbi ölkə siyasətçilərini birləşdirdi. Siyasi partiyaların rəhbərləri birgə bəyanatında Ermənistanın işğalçı siyasətini şiddətlə qınadı. Mülki əhalinin yaşadığı kəndlərin bombalanması faktı insanlığa qarşı edilən cinayət kimi beynəlxalq təşkilatlar tərəfindən ittiham edildi.

Yeri gəlmişkən, İkinci Qarabağ müharibəsi zamanı ölkədə fəaliyyət göstərən siyasi partiyaların Ali Baş Komandan İlham Əliyevə dəstək ifadə edən birgə bəyanat və müraciətlər imzalaması milli məsələlərdə respublikada hər hansı fikir ayrılığının istisna olunduğunu göstərdi. Siyasi partiyalar tərəfindən, ümumilikdə, 8 birgə bəyanat və 2 müraciət imzalandı. Burada "Ermənistanın Azərbaycana qarşı davam edən təcavüzü və dövlət sərhədinin Tovuz istiqamətində törətdiyi təxribatları ilə əlaqədar", "Ermənistan silahlı qüvvələrinin genişmiqyaslı təxribatına dair", "Fransa Senatında Dağlıq Qarabağdakı qondarma qurumun tanınması məsələsinə baxılması ilə bağlı" bəyanatlar, həmçinin "Dağlıq Qarabağ məsələsində Fransanın mövqeyinə dair" və müharibə dövründə 16 beynəlxalq təşkilata Azərbaycan ziyalılarının və vətəndaş cəmiyyəti üzvlərinin (o cümlədən, 50 siyasi partiyanın) müraciətləri xüsusi olaraq diqqət çəkdi.

Erməni vandallarının xarabazara çevirdikləri yurdlarımızın bərpası, inkişaf axarına qovuşması, sosial-iqtisadi dirçəlişi hazırda dövlətimizin qarşısında duran ən mühüm vəzifədir. Prezident İlham Əliyev daim bütün məsələlərdə olduğu kimi, bu istiqamətdə də aydın planlara, strateji hədəflərə malikdir. Bax elə buna görə də xalqımız Qarabağın tezliklə dünyanın ən abad ərazilərindən birinə çevriləcəyinə, cənnət diyar kimi tanınacağına əmindir.

Hər zaman olduğu kimi, bu gün də xalqın dəstəyinə arxalanan dövlətimizin başçısı düşməndən təmizlənən torpaqlara davamlı səfərləri ilə öz sevincini xalq ilə bölüşməklə yanaşı, həmin əraziləri tez bir zamanda bərpa etmək, dirçəltmək əzmində olduğunu əyani nümayiş etdirir.

***Vaqif BAYRAMOV,***
***"Xalq qəzeti"***

Xalq qəzeti .- 2021.- 24 noyabr.- S.1;4.